# REGİONLARDA KƏND TƏSƏRRÜFATININ DİVERSİFİKASİYALAŞDIRILMASINDA KİÇİK VƏ ORTA BİZNESİN ROLU

**Hüseyn Elçin DAŞPOLADOV**
Azərbaycan Kooperasiya Universitetinin doktorantı,
AZ1124, Azərbaycan Respublikası,
Bakı şəhəri, N.Nərimanov küç.93
E-mail: huseyn.dashpoladov@gmail.com

**Received:** 15 April 2026 **Revised:** 9 June 2026 **Accepted:** 25 June 2026

**UOT:** 330.33 **JEL:** Q18; M21 **DOİ:**https://doi.org/10.32010/MYAC6508

**Xülasə:** Tədqiqatın məqsədi məqalədə regionlarda kənd təsərrüfatının diversifikasiyalaşdırılmasında kiçik və orta biznesin rolu araşdırılmışdır. Regionların inkişaf prosesləri ilə bağlı problemlər açıqlanmış və sistemləşdirilmişdir. Sahibkarlığın inkişafına mane olan amillər təhlil olunmuşdur. Kiçik və orta sahibkarlığın regionlarda əhəmiyyəti qeyd edilmişdir. Sahibkarlıq subyektlərinin kənd təsərrüfatının inkişafında çoxfunksiyalı fəaliyyəti təhlil edilmişdir. Müasir dövrdə Azərbaycanın regionlarında kənd təsərrüfatının diversifikasiyalaşdırılmasında kiçik və orta biznesin rolunun artırılması üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.
Tədqiqatın metodu kimi analiz, sintez, müqayisə, statistika və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Eyni zamanda, regionlarda kənd təsərrüfatının inkişaf etdirilməsində kiçik və orta biznesin roluna dair araşdırmalar aparan tədqiqatçıların elmi əsərlərinə istinad olunmuşdur.
Tədqiqatın nəticələri – regionlarda kənd təsərrüfatının inkişaf problemlərinin həll edilməsi və onun strukturunun genişləndirilməsində kiçik və orta biznesin rolunun artırılması istiqamətlərində daha təsirli tədbirlərin görülməsində faydalı ola bilər.

**Açar sözlər**: Azərbaycan, regionlar, kənd təsərrüfatı, kiçik və orta biznes, kənd təsərrüfatının inkişaf problemləri, diversifikasiya, kənd təsərrüfatının diversifikasiyası.

## Giriş

Qeyd edək ki, kənd təsərrüfatı tarix boyunca insan cəmiyyətlərinin inkişafında önəmli rol oynamış sahələrdəndir. Bu sahə ərzaq təhlükəsizliyinin, kənd əhalisinin işlə təminatında və milli iqtisadiyyatın gücləndirilməsində əvəzsiz rola malikdir. Müasir dövrdə isə əhalinin sürətli artımı, qlobal iqlim dəyişikliyi, təbii ehtiyatların azalması və bazarın dəyişən tələbləri kənd təsərrüfatında yeni yanaşmaların tətbiqini zəruri edir. Bu cür yanaşmalardan biri də kənd təsərrüfatında diversifikasiyadır. Xüsusilə bölgələrdə bu yanaşmanın tətbiqi iqtisadi sabitliyin qorunmasına və ekoloji balansın saxlanmasına müsbət təsir göstərir. İqtisadiyyatda diversifikasiya, risklərin azaldılması və gəlirlərin artırılması məqsədilə fəaliyyət sahələrinin və məhsul çeşidlərinin genişləndirilməsi strategiyası kimi qəbul olunur. Bu konsepsiya, müəssisələrin iqtisadi fəaliyyət zamanı qarşılaşdıqları riskləri minimuma endirmək və rəqabət imkanlarını gücləndirmək baxımından tədqiqatçıların diqqət mərkəzindədir. Təsərrüfat subyektləri yeni sahələr üzrə biznes fəaliyyəti quraraq və alternativ bazarlara daxil olaraq maliyyə baxımından sabitlik əldə edir, iqtisadi səmərəliliyi artırırlar. Diversifikasiyanın istiqamətləri isə müxtəlif amillərin təsiri ilə formalaşır və zaman keçdikcə bu amillərin təsir dərəcəsi dəyişə bilir.

Müasir dövrdə qlobal təsirlərin artması fonunda milli iqtisadiyyatın struktur baxımından təkmilləşdirilməsi və strateji əhəmiyyətə malik,

perspektivli sahələrin inkişafının sürətləndirilməsi yolu ilə iqtisadiyyatın diversifikasiyası xüsusi önəm daşıyır. Bu cür yanaşma dünyanın bir çox ölkələrində tətbiq olunur və xüsusilə son illərdə COVİD-19 pandemiyasının iqtisadi sistemlərə vurduğu mənfi təsirlər, mövcud şəraitdə iqtisadiyyatın effektiv idarə olunmasını daha çətin və mürəkkəb hala gətirmişdir. Bu səbəbdən, əvvəlki illərlə müqayisədə daha çevik və praktik fəaliyyət alətlərinə, habelə səmərəli mexanizmlərə ehtiyac əhəmiyyətli dərəcədə artmışdır. Bununla yanaşı, bəzi sahələr mövcuddur ki, onların inkişafı bütün ölkələr üçün strateji prioritet sayılır və bu sahələrin möhkəmləndirilməsi milli və iqtisadi təhlükəsizlik və digər milli və qlobal çağırışlar baxımından vacib rol oynayır. Belə sahələrdən biri də kənd təsərrüfatıdır və onun diversifikasiya yolu ilə balanslı şəkildə inkişaf etdirilməsi əhalinin ərzaq təhlükəsizliyinin təminatı baxımından həlledici önəm daşıyır [1, s.3].

Kənd təsərrüfatının strukturunun diversifikasiyalaşdırılması kənd yerlərinin daha da inkişafı üçün əsas şərtlərdən biridir, çünki bu, ərazilərin daxili resurslarından istifadə etməyə, sosial sahənin, istehsal və bazar infrastrukturunun inkişafı üçün şərait yaratmağa, inteqrasiya olunmuş strukturların inkişafına, KOB-un kooperasiya proseslərinə, yüksək keyfiyyətli əsasda istehsal resursları ilə təminatının, ölkə iqtisadiyyatın maliyyə cəlbediciliyinin artırılmasına imkan verir [2, s.51].

**Regionlarda kənd təsərrüfatının potensialının qiymətləndirilməsi**

Kənd təsərrüfatında diversifikasiya əkinçilik və heyvandarlığın müxtəlif sahələr üzrə genişləndirilməsi, qeyri-ənənəvi məhsul və xidmətlərin istehsalına keçid, həmçinin aqroturizm, kooperativlər və emal sənayesi kimi əlavə gəlir gətirən fəaliyyətlərin inkişaf etdirilməsidir. Bu, yeganə məhsul və ya sektordan asılılığın azaldılmasına, bazar risklərinin minimuma endirilməsinə və əlavə dəyər yaradan sahələrin inkişafına yönəlib. Məsələn, taxılçılıqla yanaşı meyvəçilik, tərəvəzçilik, üzümçülük, balıqçılıq və arıçılığın inkişaf etdirilməsi, heyvandarlığın müxtəlif istiqamətlərinin inkişafı, aqroturizm və orqanik kənd təsərrüfatı kimi yeni istiqamətlərin yaradılması və s. Bu, həm də iqlim dəyişikliklərinə qarşı dayanıqlılığı artırmaq, gəlir mənbələrini çoxaltmaq və riskləri minimuma endirmək məqsədi daşıyır.

Bazar iqtisadiyyatı şəraitində diversifikasiya strategiyasına müraciət edilməli olan hallar müxtəlif səbəblərlə şərtlənir. Belə ki, bazarda durğunluq yaşandıqda, tələbatın azalması müşahidə olunduqda və ya müəssisə inhisarçı mövqeyinə sahib olduqda bu yanaşma aktuallaşır. Habelə, əgər müəssisənin sərəncamında kifayət qədər kapital mövcuddursa və bu vəsaitlərin daha optimal və səmərəli istifadəsinə ehtiyac yaranırsa, diversifikasiya uyğun bir çıxış yolu kimi çıxış edir. Bundan əlavə, rəqabət üstünlüyünü itirməyə başlayan və ənənəvi bazarda əlavə gəlir əldə etmək imkanlarını itirən müəssisələr üçün də bu proses zəruri hala gəlir. Ümumilikdə isə diversifikasiya tədbirləri müəssisələrin rəqabət mühitində öz mövqelərini gücləndirmək və iqtisadi dəyişikliklərə çevik reaksiya vermək niyyətindən irəli gəlir [3, s.163].

Kənd təsərrüfatının strukturunun diversifikasiyalaşdırılmasının məqsədləri həmin sahə müəssisələrinin daxili maraqlarından kənara çıxır. İqtisadi göstəricilərin artması ilə yanaşı, diversifikasiya yeni iş yerlərinin açılmasına, kənd sakinlərinin gəlirlərinin artırılmasına, sosial sferanın gücləndirilməsi üçün imkanların yaradılmasına: səhiyyənin, təhsilin və mədəniyyətin yüksəlişinə imkan yaradır. Bu, kəndləşmə proseslərini sürətləndirəcək, yəni əhalinin kəndlərə axınını artıracaq.

Regionların torpaq, iqlim və su ehtiyatları kimi təbii xüsusiyyətləri bir-birindən fərqləndiyi üçün kənd təsərrüfatı fəaliyyətləri də buna uyğun olaraq ixtisaslaşmalıdır. Lakin yalnız bir məhsul və ya sahə üzərində ixtisaslaşma, xüsusilə təbii fəlakətlər və bazar dəyişiklikləri fonunda risklər yaradır. Məhz bu səbəbdən diversifikasiya aşağıdakı üstünlükləri təqdim edir: fərqli məhsul və xidmətlərin satışından əldə olunan gəlir mənbələri kənd təsərrüfatı sahibkarları üçün daha sabit və davamlı iqtisadi baza yaradır; müxtəlif sahələrin inkişafı kənd əhalisinin müxtəlif dövrlərdə işlə təmin olunmasına şərait yaradır və kənddən şəhərə miqrasiyanı azaldır; geşidli məhsul istehsalı daxili bazarın tələblərinə daha yaxşı cavab verməklə yanaşı, idxaldan asılılığı da azaldır; müxtəlif texnologiyaların, o cümlədən, damcı ilə suvarma, ağıllı təsərrüfat sistemlərinin istifadəsini təşviq edir və s.

Kənd təsərrüfatının strukturunun diversifikasiyalaşdırılması proseslərinin əhəmiyyəti təkcə sənaye ehtiyacları ilə deyil, habelə kənd yerlərinin davamlı inkişafı üçün KOB-un əhəmiyyəti ilə müəyyənləşdirilir. İqtisadi strukturun transformasiyası kənd əhalisinin mənafeyinə uyğun olaraq gəlirlərin yenidən bölüşdürülməsinə yardım etməlidir. Odur ki, diversifikasiya istiqamətləri müəyyənləşdirilərkən təkcə KOB subyektlərinin mənfəətinin və rentabelliyinin artmasına deyil, habelə bu gün ən aktual ümummilli vəzifələrdən biri olan kənd yerlərinin sosial-iqtisadi inkişafının yaxşılaşdırılmasına diqqət yetirilməlidir. Diversifikasiya sahələrini müəyyənləşdirərkən kənd yerlərinin diversifikasiya potensialını nəzərə almaq lazımdır ki, bura müxtəlif resursların mövcudluğu və onların keyfiyyəti daxildir.

Azərbaycanın regionlarında kənd təsərrüfatı ənənəvi iqtisadi fəaliyyət növü kimi formalaşmış və bu sahədə dövlət tərəfindən ardıcıl dəstək siyasəti reallaşdırılmışdır. Son illərdə iqtisadiyyatın diversifikasiyalaşdırılması istiqamətində aparılan islahatlar həmin sektorun strukturunda diversifikasiya proseslərini zəruri etmişdir. Bu kontekstdə KOB subyektlərinin rolu və fəaliyyəti xüsusi önəm daşıyır. Tədqiq etdiyimiz sektorda KOB, yüksək çeviklik və diversifikasiya potensialı ilə fərqlənən ən dinamik sektorlardan biridir. Bu müəssisələr bazarın dəyişən tələblərinə operativ şəkildə uyğunlaşaraq, kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına əhəmiyyətli töhfə verə və müxtəlif növ məhsulların istehsalına tez bir zamanda keçid edə bilirlər.

Hazırda Azərbaycanda KOB-un regionların kənd təsərrüfatında daha aktiv rol oynaması üçün genişmiqyaslı tədqiqatlar aparılır. Bu çərçivədə regionlarda biznes fəaliyyətinə əlverişli şəraitin yaradılması, dəstək mexanizmlərinin işlənməsi, KOB subyektlərinin rəqabətə davamlılığının gücləndirilməsi və həm yerli, həm də xarici sərmayələrin cəlb edilməsi istiqamətində ciddi səylər göstərilir. Bütün bu tədbirlər təkcə kənd təsərrüfatının strukturunun deyil, ölkə iqtisadiyyatının diversifikasiyası və davamlı inkişaf strategiyasının əsas hədəfləri sırasındadır [4, s.175].

Kənd təsərrüfatı müəssisələrinin və ümumilikdə kənd yerlərində iqtisadiyyatın struktur baxımından diversifikasiyası üçün əsas tələb, istənilən KOB subyektinin resurslara bərabər çıxışını, innovativ texnologiyalarla və müasir biznes modelləri ilə işləmək imkanlarını təmin edən sənayenin institusional mühiti və dövlətin sahibkarların innovativ təşəbbüslərinə göstərdiyi dəstəkdir. Kənd təsərrüfatındakı KOB subyektlərinin fəaliyyətlərinin genişlənməsi isə adətən iqtisadi amillərlə, ilk öncə, miqyas effekti, bazar mühiti, ETT-nin inkişafı və sosial-demoqrafik dəyişikliklərlə bağlıdır.

Azərbaycan dövləti kənd təsərrüfatının diversifikasiyası üçün bir sıra mexanizmlər tətbiq edir ki, bunlara alternativ sahələrə yönəlmiş layihələrə prioritetlik verilməsi, risklərin azaldılması üçün fermerlərə güzəştli şərtlərlə sığorta xidmətləri təklif olunması, yeni texnologiyalar və məhsul növləri haqqında məlumat verilməsi, müxtəlif sahələrin bir məkanda sinerji yaratmasına şərait yaradılması və s. aid edə bilərik.

KOB-lar yerli iqlim və torpaq şəraitinə uyğun məhsul istehsalını reallaşdırmaqla kənd təsərrüfatının strukturunu şaxələndirirlər. Məsələn, Quba-Xaçmaz regionunda alma və fındıqçılığın, Qazax-Tovuz bölgəsində üzümçülüyün, Şəki-Zaqatalada arıçılığın, Lənkəran-Astara bölgəsində sitrus meyvələrinin və çayçılığın inkişafı və s. KOB-lar emal sənayesinə investisiya yatırmaqla məhsulun yerində dəyərini artırır. Məsələn, süddən pendir və ya meyvədən mürəbbə istehsalı diversifikasiyanın bir formasıdır.

2023-cü ildə ölkə üzrə kənd təsərrüfatı sahəsində yaradılmış yeni mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı 58346 vahid təşkil etmişdir. Bu göstərici üzrə liderliyi Qazax-Tovuz və Lənkəran-Astara bölgələri tutur, belə ki, bu bölgələrin payına müvafiq olaraq 16,1% və 15,1% düşür. Yaradılmış sahibkarlıq subyektlərinin böyük əksəriyyəti mikro səviyyəli təsərrüfatlardır. Habelə, ümumilikdə ölkədə 125159 yeni mikro, kiçik və orta sahibkarlıq subyekti təsis olunmuşdur. Bu rəqəmin ən böyük hissəsi – 34 649 vahid və ya 27,7% olmaqla Bakı şəhərində qeydiyyata alınıb və əsasən sənaye sahəsinə aiddir.




**Şəkil 1. Azərbaycanda 2023-cü ildə kənd təsərrüfatında yeni yaradılmış mikro, kiçik və orta sahibkarlıq subyektlərinin regionlar üzrə bölgüsü, vahid (https://www.stat.gov.az/source/entrepreneurship/ ).**

Azərbaycanda aparıcı sektorlarından olan kənd təsərrüfatı məhsullarının strukturunun diversifikasiyası və miqyasının artırılması üçün geniş imkanlar mövcuddur. Bu imkanlardan tam və səmərəli şəkildə faydalanmaq olduqca önəmlidir. Bitkiçilik və heyvandarlıq sahələrinin inkişafı, məhsuldarlığın yüksəldilməsi və əkin sahələrinin genişləndirilməsi ilə sıx bağlıdır. Əkin üçün ayrılan sahələrin artırılması isə öz növbəsində dənli və dənli paxlalı bitkilərin, yem, texniki bitkilərin, eləcə də kartof, tərəvəz və bostan məhsullarının istehsal həcminin artmasına şərait yaradır [5, s.27].

Azərbaycanda 2023-cü ildə ölkə üzrə əkin sahələrinin ümumi 1535,0 min hektar olub ki, bunun iqtisadi rayonlar üzrə bölgüsü şəkil 2-dəki kimi olmuşdur.




**Şəkil 2. Azərbaycanda 2023-cü ildə regionlar üzrə əkin sahələrinin həcmi, min hektar.**

Şəkil 2-dən görürük ki, ölkə üzrə əkin sahələrinin əsas hissəsi Mil-Muğan, Mərkəzi Aran və Qarabağ bölgələrinin payına düşür. Bu bölgələr üzrə əkin sahələri ümumi əkin sahələrinin 40,5%-ni təşkil etmişdir (müvafiq olaraq 13,9%, 13,4% və 13,2%). Bu bölgələrdə əkin sahələrinin çox olmasına baxmaayaraq, kənd təsərrüfatı məhsullarının buraxılışının əsas hissəsi Bakı şəhərinin payına düşür. Məsələn, 2023-cü ildə ölkə üzrə qeyd edilən subyektlər tərəfindən 1091,6 milyon AZN həcmində məhsul buraxılışı olmuşdur ki, bunun 267,0 milyon AZN-i və ya 24,4%-i Bakı şəhərinin payına düşür. Bunun da 164,6 milyon AZN-i və ya 15,1%-i orta, 51,9 milyon AZN-i və ya 4,7%-i mikro, 50,5 milyon AZN-i və ya 4,6%-i isə kiçik sahibkarlıq subyektləri üzrədir. İkinci yerdə 19,6% xüsusi çəki ilə Abşeron-Xızı bölgəsi qərarlaşıb.

KOB-lar daha çevik və innovativ struktura malik olduqları üçün yeni texnologiyaların və məhsul növlərinin tətbiqinə daha açıqdırlar. Məsələn, kiçik sahibkarlar orqanik məhsulların istehsalına keçid edir, suvarma sistemlərini mo-

dernləşdirir və s. KOB-lar regionlarda yerli bazarlar üçün tələbatı öyrənərək yüksək əlavə dəyərli məhsullar yetişdirir. Kiçik fermer təsərrüfatlarının birləşməsi ilə yaranan kooperativlər kənd təsərrüfatı məhsullarının istehsalını və satışını koordinasiya edir ki, bu, xərclərin azaldılması və resursların effektiv istifadəsini də təmin edir.

**Regionlarda kənd təsərrüfatının diversifikasiyalaşdırılmasında kiçik və orta biznesin rolunun artırılması postulatları**

Yuxarıda qeyd etdiyimiz ki, regionlarda kənd təsərrüfatının diversifikasiyalaşdırılması üçün onun müxtəlif istiqamətlərdə ixtisaslaşması əsas şərtlərdən biridir. Regional bazarların inkişafı, kənd təsərrüfatı sahəsində ixtisaslaşmanın formalaşmasına önəmli təsir göstərir. Həmin sahə məhsullarının səmərəli yerləşdirilməsi, ixtisaslaşması və təmərküzləşməsi yalnız resurslardan rasional istifadə baxımından deyil, habelə ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması baxımından vacib amildir. İxtisaslaşma ilə ərzaq təhlükəsizliyi arasında olan əlaqə müsbət və ya mənfi xarakter daşıya bilər. Belə ki, müəyyən bir sahə üzrə dərin ixtisaslaşma digər məhsulların idxalına zərurət yaradaraq, ölkəni idxaldan asılı vəziyyətə sala bilər. Əgər ixtisaslaşma zamanı səmərəlilik və keyfiyyət kimi mühüm meyarlar nəzərə alınmazsa və dəyişkən iqlim şəraiti istehsal növlərinin azalmasına gətirib çıxararsa, bu, nəticə etibarilə idxal asılılığına səbəb ola bilər. Bununla belə, Azərbaycanın müxtəlif və əlverişli iqlim xüsusiyyətləri geniş çeşiddə kənd təsərrüfatı məhsullarının istehsalına imkan yaratdığı üçün burada ixtisaslaşmanın əsaslandırılmış və məqsədyönlü şəkildə aparılması zəruridir. Bu yanaşma həm təbii ehtiyatlardan səmərəli istifadəyə, həm də məhsul keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Kənd təsərrüfatında ixtisaslaşma həmçinin regional səviyyədə aqrar bazarların inkişafına təkan verir. İxtisaslaşma prosesində emal sənayesinin inkişafı da xüsusi önəm daşıyır, çünki bu sahə kənd təsərrüfatı məhsullarını xammalla təmin etməklə istehsalın dəyər zənciri boyunca ixtisaslaşmanı dərinləşdirir. Bütün bu proseslərə regionlarda KOB-ların fəaliyyəti önəmli dərəcədə təkan verir.

Məlumdur ki, Azərbaycanın bölgələri təbii-iqlim şərtlərinə və relyef xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Bu müxtəliflik hər bir regionda spesifik kənd təsərrüfatı məhsullarının becərilməsi üçün uyğun şərait yaradır. İxtisaslaşma bölgənin iqlim potensialı və istehsalçıların təcrübəsinə əsaslanaraq, məqsədyönlü məhsul istehsalını inkişaf etdirmək imkanı verir. Məsələn, bəzi ərazilər müəyyən bitkiçilik və ya heyvandarlıq sahələri üçün daha münasibdir. Bu xüsusiyyətlər regionların kənd təsərrüfatı istehsalını ixracyönümlü istiqamətdə inkişaf etdirmək potensialına malik olduğunu göstərir. Belə məhsullar sırasında pomidor, xiyar, xurma, nar, alma, fındıq və kartof kimi yüksək ixrac dəyərinə və müqayisəli üstünlüklərə malik məhsullar yer alır ki, onların da xeyli hissəsi KOB-lar tərəfindən istehsal olunur [6, s.42].

Regionlarda kənd təsərrüfatının strukturunun diversifikasiyalaşdırılmasında KOB-un rolunun artırılması bu sahədə dövlət dəstəyinin reallaşdırılmasını zəruri edir ki, bu da onların inkişafı baxımından önəmlidir. KOB-un inkişafı üçün nəzərdə tutulan dövlət dəstəyi tədbirləri əsasən bir neçə istiqaməti – normativ-hüquqi, təşkilati, proqram və məqsədli yanaşmalar, eləcə də funksional və resurs təminatını əhatə edir. Bu dəstək sahələrinin hər birinin effektivliyini obyektiv şəkildə qiymətləndirmək, daha səmərəli mexanizmləri müəyyənləşdirmək, zəruri hallarda isə mövcud sistemləri yenidən qurmaq və ya uyğunlaşdırmaq xüsusi əhəmiyyət daşıyır. Dövlət dəstəyi, KOB-un kənd təsərrüfatında daha da güclənməsinə istiqamətlənməli, bu da istehsal miqyasının artmasına və həmin sektorda diversifikasiyanın dərinləşməsinə şərait yaratmalıdır.

Hazırkı mərhələdə ölkəmizin kənd təsərrüfatı sektorunda KOB-un inkişafı üçün ən vacib şərtlərdən biri dövlətin dəstək mexanizmlərinin daha da təkmilləşdirilməsidir. Bazar iqtisadiyyatının yüksək səviyyədə formalaşdığı ölkələrin təcrübəsi sübut edir ki, dövlət həmin sahə məhsullarının istehsalının artırılması, satışının asanlaşdırılması və istehsalçının gəlirlərinin artırılması məqsədilə müxtəlif stimullaşdırıcı tədbirlər reallaşdırır. Azərbaycan dövləti də bu istiqamətdə önəmli addımlar atmaqda davam edir. Dövlətin KOB-a dəstəyinin əsas istiqamətlərindən biri kimi kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli kreditlərin ayrılması və uyğun vergi siyasətinin reallaşdırılması xüsusi önəm daşıyır [7, s.138].

Azərbaycanda kənd təsərrüfatının strukturunun diversifikasiyalaşdırılması, onun inkişafının təmin edilməsi və KOB subyektlərinin fəaliyyətinin genişlənməsini məqsədilə həmin sektorun milli müasir modeli çərçivəsində istehsalda modernləşmə və institusional dəyişikliklər reallaşdırılmalıdır. Bu model həmin sektorda KOB-un rolunu qiymətləndirərək, ASK-nın inkişafının xüsusi koordinasiya formasını təqdim edir. Nəticədə görülən tədbirlər milli kənd təsərrüfatının dünya bazarlarında mövqeyinin güclənməsinə xidmət edir [8, s.51].

Milli səviyyədə əsas strateji hədəflərdən biri iqtisadiyyatın diversifikasiyası və onun strukturunda keyfiyyət dəyişikliyinə nail olmaqdır. Kənd təsərrüfatında diversifikasiya isə bu sahədə iqtisadi fəaliyyət sahələrinin genişləndirilməsi ilə xarakterizə olunur və bu istiqamətdə görüləcək işlər dövlətin iqtisadi siyasətində mühüm yer tutmalıdır. KOB-un bu sahədə inkişafı nəticə etibarilə diversifikasiyanı təşviq edir, çünki bu, istehsalın yalnız bir sahəyə yönəlmiş monokultural formasının qarşısını alır, kənd təsərrüfatı fəaliyyətini çoxşaxəli edir və sahələr arasında qeyri-bərabər inkişafın qarşısını almağa kömək edir.

**Nəticə**

Beləliklə, əldə olunan nəticələrə əsasən demək olar ki, Azərbaycanın regionlarında kənd təsərrüfatının strukturunun diversifikasiyası iqtisadi inkişaf və ərzaq təhlükəsizliyi baxımından strateji önəm daşıyır:

– KOB subyektləri bu transformasiya prosesində əsas aparıcı qüvvəyə çevrilməkdədir;

– Dövlətin verdiyi dəstək və reallaşdırılan institusional islahatlar KOB-ların kənd təsərrüfatında yeni məhsul və xidmət sahələrinə keçidini sürətləndirməklə, yalnız daxili iqtisadiyyatın möhkəmlənməsinə deyil, habelə ixrac imkanlarının genişlənməsinə də şərait yaradır;

– Gələcək perspektivdə bu sahədə əlaqələndirilmiş fəaliyyətin təşkili və resursların səmərəli idarə olunması KOB-ların həmin sktorda rolunu daha da artıracaq;

– KOB-lar kənd təsərrüfatını innovativ, rəqabətədavamlı və davamlı inkişaf edən bir sektora çevirmək potensialına malik əsas aktorlardandır;

– Əgər KOB subyektlərinə dövlət dəstəyi və optimal strateji yanaşmalar tətbiq olunarsa, onların potensialı daha da güclənəcək və regionların iqtisadi inkişafına önəmli töhfələr veriləcəkdir və s.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Bədirzadə, G.Ş. Aqrar sahədə informasiya-kommunikasiya texnologiyalarının iqtisadi səmərəliliyinin artırılması istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş diss. avtoreferatı./ – Gəncə, 2022. – 30 s.
2. Ковалева, И.В. Диферсификации экономики сельских территорий региона / И.В. Ковалева // Modern Economy Success. – 2018. № 3. – с. 47-51.
3. Юсупов, Э.Д. Диверсификации деятельности субъектов бизнеса в сельском хозяйстве: теоретические основы и рыночные принципы ее реализации / Э.Д. Юсупов // Российский электронный научный журнал. – 2018. № 4(30), – с. 162-167.
4. Həsənov, Ü. Kiçik və orta sahibkarlığın tənzimlənməsinin xarici təcrübəsi və onun Azərbaycanda tətbiqi imkanları. Geostrategiya jurnalı, – may-iyun 2024. № 03 (81), – s.173-176.
5. Əliyev, Ş.T. Azərbaycanda kənd təsərrüfatının və aqrar sənaye kompleksinin inkişafının strateji aspektləri. İpək Yolu, №2-2018. – s. 23-32.
6. Nuraliyeva, R.N. Mamedova G.V., at all. (2025) Evaluation of Customs-Tariff Regulation in Azerbaijan's Container Transport System and its Impact on the Environment. https://www.taylorfrancis.com/chapters/edit/10.1201/9781003606659-25/evaluation-customs-tariff-regulation-azerbaijan-container-transport-system-impact-environment-rahima-nuraliyeva-gulnara-vaqifqizi-mamedova-aydan-abasova-rauf-mammadov-kamala-mammadova-nilufar-esanmurodova
7. Quliyev, E.Ə., Səfərov, C.N. Kənd təsərrüfatının ixtisaslaşması və regionlarda aqrar məhsullar bazarının inkişafı. Kənd Təsərrüfatının İqtisadiyyatı, – 2024. № 2 (46), – s.38-47.
8. Xudaverdiyeva, E. Kənd təsərrüfatında kiçik sahibkarlığın inkişaf istiqamətləri. İpək yoku, – 2017. №.3, – s.136-140.
9. Yusufova, Ş.A. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi istiqamətləri. Kənd təsərrüfatının iqtisadiyyatı, – 2021. № 4 (38), – s.48-54.

# THE ROLE OF SMALL AND MEDIUM BUSINESSES IN AGRICULTURAL DIVERSIFICATION IN THE REGIONS

**Huseyn Elchin DASHPOLADOV**
Doctoral student at Azerbaijan Cooperation University,
AZ1124, Azerbaijan Republic, Baku, N.Narimanov street 93
E-mail: huseyn.dashpoladov@gmail.com

**Abstract:** *The purpose of the study is* to examine the role of small and medium-sized businesses in the diversification of agriculture in the regions. The problems associated with the development processes of the regions are explained and systematized. The factors hindering the development of entrepreneurship are analyzed. The importance of small and medium-sized businesses in the regions is noted. The multifunctional activity of business entities in the development of agriculture is analyzed. Recommendations are developed and proposals are made to increase the role of small and medium-sized businesses in the diversification of agriculture in the regions of Azerbaijan in the modern era.
*The research method* used was analysis, synthesis, comparison, statistics and generalization. At the same time, reference was made to the scientific works of researchers conducting research on the role of small and medium-sized businesses in the development of agriculture in the regions.
*The results of the study* may be useful in taking more effective measures to solve the problems of agricultural development in the regions and increase the role of small and medium-sized businesses in expanding their structure.
***Key words:*** Azerbaijan, regions, agriculture, small and medium businesses, agricultural development problems, diversification, agricultural diversification

# РОЛЬ МАЛЫХ И СРЕДНИХ ПРЕДПРИЯТИЙ В ДИВЕРСИФИКАЦИИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В РЕГИОНАХ

**Гусейн Эльчин ДАШПОЛАДОВ**
Докторант Азербайджанского университета кооперации,
AZ1124, Азербайджанская Республика,
г.Баку, улица Н.Нариманова 93
E-mail: huseyn.dashpoladov@gmail.com

**Резюме:** *Цель исследования* – изучение роли малого и среднего бизнеса в диверсификации сельского хозяйства в регионах. Рассматриваются и систематизируются проблемы, связанные с процессами развития регионов. Анализируются факторы, препятствующие развитию предпринимательства. Отмечается значение малого и среднего бизнеса в регионах. Анализируется многофункциональная деятельность хозяйствующих субъектов в развитии сельского хозяйства. Разрабатываются рекомендации и предлагаются способы повышения роли малого и среднего бизнеса в диверсификации сельского хозяйства в регионах Азербайджана в современную эпоху.
*В исследовании* использовался метод анализа, синтеза, сравнения, статистики и обобщения. При этом учитывались научные работы исследователей, изучающих роль малого и среднего бизнеса в развитии сельского хозяйства в регионах..
*Результаты исследования* могут быть полезны для принятия более эффективных мер по решению проблем развития сельского хозяйства в регионах и повышения роли малого и среднего бизнеса в расширении его структуры.
**Ключевые слова:** Азербайджан, регионы, сельское хозяйство, малый и средний бизнес, проблемы развития сельского хозяйства, диверсификация, сельскохозяйственная диверсификация.